Olimpiadanın rayon-şəhər mərhələsində 21183 şagird iştirak edib. Yekun nəticələrə əsasən, Azərbaycan dili fənni üzrə 740, tarix fənni üzrə 715, coğrafiya fənni üzrə 671, biologiya fənni üzrə 452, fizika fənni üzrə 393, riyaziyyat fənni üzrə 334, kimya fənni üzrə 151, informatika fənni üzrə isə 79 şagird uğur əldə edib. Bununla, bütün fənlər üzrə 3535 şagird respublika mərhələsinin yarımfinal turunda iştirak etmək hüququ qazanıb.

Qeyd edək ki, olimpiadaların respublika mərhələsinin yarımfinal turu mart ayında zonalar üzrə keçiriləcək.